# Türk millətinin ATASI



**1934-cü il noyabrın 24-də Türkiyə Böyük Millət Məclisi belə bir qərar qəbul etmişdir.**

Qərarda deyilirdi ki, Cümhurrəisimizə "Atatürk" soyadı verilmişdir.

Elə həmin gün qəbul edilən qanuna əsasən, başqa bir şəxsin bu soyadı daşıması qəti qadağan olunmuşdur.

1934-cü ildə Türkiyədə soyadlar barədə qanunun qəbul edilməsindən sonra Mustafa Kamal paşaya da soyad verilməsi məqsədilə müzakirələr başlanmışdı. Qeyd edək ki, həmin qanuna əsasən, rütbə, məmurluq, xarici irq və millət adları ifadə edən, eləcə də əxlaqa zidd olan sözlər soyad ola bilməzdi. Həmin qanunun qüvvəyə minməsi ilə, həmçinin "ağa, hacı, hafiz, hoca, molla, əfəndi" və bu qəbildən olan digər sözlər soyadlardan çıxarıldı. Mustafa Kamal paşaya layiqli bir soyad tapmaq üçün görkəmli mütəxəssislərin də qatıldığı toplantılar keçirilir, müəyyən təkliflər irəli sürülürdü. İlkin təkliflər belə idi: "Etel-Etil, Etealp, Korkut, Araz, Ulaş, Yazır, Emen, Çoğaş, Salır, Begit, Ergin, Tokuş və Beşe". Təklif edilən bu soyadlardan sonra Mustafa Kamal paşa "yoldaşlarla bir müzakirə edək" demiş, bununla da ikinci bir toplantı günü təyin edilmişdir.

Çankayada keçirilən son toplantıda daha əvvəl bəzi yazılarda keçmiş "Türkata" adı təklif edilmişdir. Mustafa Kamal isə yekun qərarı verməyi Konyadan seçilmiş millət vəkili, dilçi alim Naim Hazım Onata həvalə etmişdir. Naim Hazım bəy "Türkata" adının həm yazılış, həm də deyiliş cəhətdən bir qədər çətin olduğunu qeyd edərək bildirmişdir: "Biz türkə hər sahədə atalıq etmiş, türklüyün əsl xilaskarı olmuş, bizləri istiqlala qovuşdurmuş Böyük Qazimizə "Atatürk" deyək, ona bu soyadı verək. Zənnimcə, bu ad dilimizə daha uyğundur".

Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürk həyatı, qatıldığı savaşlar, qazandığı zəfərlərlə dünya tarixinin ən böyük öndərlərindən biridir. Mustafa Kamal elə bir lider idi ki, o, vəfat etdiyi gün İtaliyanın dövlət radiosu "Sezar, İsgəndər, Napoleon, ayağa qalxın, böyüyünüz gəlir" anonsunu vermişdir.

***Hazırladı:***
***İmran ƏLİYEV, "Xalq qəzeti"***